**AZƏRBAYCAN RESPUBLİKASININ DÖVLƏT MİQRASİYA XİDMƏTİ VƏ AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ ARASINDA BİRGƏ ƏMƏKDAŞLIQ HAQQINDA**

**RAZILAŞMA**

**Bakı şəhəri** "19" dekabr 2013-cü il

**Ümumi müddəalar**

1.1. Azərbaycan Qızıl Aypara Cəmiyyəti Azərbaycan Respublikasının tərəfdar çıxdığı beynəlxalq müqavilələrə, "Azərbaycan Qızıl Aypara Cəmiyyəti haqqında" Azərbaycan Respublikasının Qanununa, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Hərəkatının Nizamnaməsinə, Beynəlxalq Qızıl Xaç və Qızıl Aypara Cəmiyyətləri Federasiyasının Nizamnaməsinə, Azərbaycan Qızıl Aypara Cəmiyyətinin Nizamnaməsinə uyğun şəkildə roluna riayət etməklə miqrasiya sahəsində hökumətə yardımçıdır.

1.2. Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti öz əsasnaməsinə uyğun olaraq miqrasiya sahəsində dövlət siyasətini, miqrasiya proseslərinin idarə edilməsi və tənzimlənməsində Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən edilmiş səlahiyyətləri həyata keçirən, hüquq-mühafizə statuslu mərkəzi icra hakimiyyəti orqanıdır.

1.3. "Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti arasında birgə əməkdaşlıq haqqında Razılaşma"nın (bundan sonra-Razılaşma) əsas məqsədi Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti və Azərbaycan Qızıl Aypara Cəmiyyəti (bundan sonra-Tərəflər) arasında əməkdaşlıq şərtlərini əks

etdirmək, o cümlədən Azərbaycan Qızıl Aypara Cəmiyyəti və Azərbaycan Hökumətinin Qızıl Xaç və Qızıl Ayparanın 31-ci Beynəlxalq Konfransında kollektiv surətdə imzaladığı öhdəlikdə göstərilən 3-cü Qətnamənin (Miqrasiya: girişin təmin edilməsi, ləyaqət, müxtəlifliyə hörmət və sosial inteqrasiya) Tərəflər tərəfindən öz səlahiyyətləri daxilində yüksək səviyyədə icrasını təmin etməkdir.

## 2. Razılaşma çərçivəsində həyata keçiriləcək fəaliyyətlər

2.1. Razılaşmanın icrası üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən həyata keçiriləcək fəaliyyətlər aşağıdakılardan ibarətdir:

2.1.1. fəaliyyət istiqamətlərinə uyğun olaraq, qaçqınlara, həmçinin Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin təqdimatı ilə digər əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə müvafiq humanitar proqramlara, layihələrə və özünün ənənəvi humanitar yardım qaydalarına əsasən yemək, sığınacaq, geyim, daşınma dəstəyi, sağlamlıq və qayğı üzrə işlər, ilk yardım, psixososial dəstək və s. kimi fəaliyyətləri təşkil etmək;

2.1.2. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquqlarının qorunması üzrə müvafiq proqramlar, layihələr həyata keçirmək və məsləhətlər vermək;

2.1.3. Beynəlxalq Qızıl Xaç Komitəsi ilə birgə qaçqınlar və onların ailələri arasında əlaqələrin bərpa edilməsinə dair tədbirlər görmək;

2.1.4. qanunsuz miqrasiyaya qarşı mübarizə sahəsində Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinə hərtərəfli və lazımi köməklik göstərmək, o cümlədən əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin qanunsuz miqranta çevrilməməsi və onların hər hansı bir risklərlə üzləşməməsi üçün təbliğat işlərini həyata keçirmək;

2.1.5. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin təzyiqlərlə və irqçiliklə üzləşməsi, ksenofobiya, cəmiyyətdən təcrid olunması hallarını, onların sosial problemlərini və s. halların aradan qaldırılması üzrə təbliğat aparmaq;

2.1.6. əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin, xüsusilə Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan

şəxslərin yerli şəraitə uyğunlaşdırılmasına dair tədbirlər (Azərbaycan Respublikasında yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyin öyrənilməsi və s.) üzrə proqramlar, layihələr və fəaliyyətlər reallaşdırmaq;

2.1.7. miqrasiya məsələləri üzrə təşkil etdiyi işçi görüşlərdə, tədbirlərdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin nümayəndələrinin iştirak etməsinə şərait yaramaq.

2.2. Razılaşmanın icrası üçün Azərbaycan Respublikasının Dövlət Miqrasiya Xidməti tərəfindən həyata keçiriləcək fəaliyyətlər aşağıdakılardan ibarətdir:

2.2.1. Razılaşmanın 2.1-ci bəndindəki fəaliyyətlərin həyata keçirilməsinə öz səlahiyyətləri daxilində dəstək vermək;

2.2.2. Azərbaycan Qızıl Aypara Cəmiyyəti ilə əməkdaşlığın və birgə təşəbbüslərin həyata keçirilməsini təşkil etmək, özünün əlaqələndirici vəzifəli nümayəndəsini müəyyən etmək;

2.2.3. miqrasiya sahəsində keçirdiyi müvafiq tədbirlərə Azərbaycan Qızıl Aypara Cəmiyyətini dəvət etmək;

2.2.4. axtarış və miqrasiya ilə əlaqədar sorğuların qanunvericiliyə uyğun olaraq cavablandırılmasını təmin etmək;

2.2.5. Azərbaycan Qızıl Aypara Cəmiyyətinin ekspertləri, əməkdaşları və könüllüləri tərəfindən əcnəbilərə və vətəndaşlığı olmayan şəxslərə hüquqi məsləhətlərin verilməsi və s. məsələlərlə əlaqədar təşkil olunan təlimlərdə Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin mütəxəssislərinin iştirakını təmin etmək;

2.2.6. Azərbaycan Respublikasında daimi yaşayan əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin yerli şəraitə uyğunlaşdırılmasına dair tədbirlər (Azərbaycan Respublikasında yaşayan əcnəbilər və vətəndaşlığı olmayan şəxslər Azərbaycan dilinin, tarixinin, mədəniyyətinin, əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin hüquq və vəzifələri ilə bağlı qanunvericiliyin öyrənilməsi) üçün Azərbaycan Qızıl Aypara

bağlı qanunvericiliyin öyrənilməsi) üçün Azərbaycan Qızıl Aypara Cəmiyyəti tərəfindən təşkil olunan kurslarda əcnəbilərin və vətəndaşlığı olmayan şəxslərin iştirak etməsinə köməklik göstərmək.

## 3. Əməkdaşlıq şərtləri

3.1. Tərəflər Razılaşmanın 2.1-ci və 2.2-ci bəndlərində qeyd olunan fəaliyyətləri məsləhətləşmə və razılaşma əsasında həyata keçirirlər.

3.2. Tərəflər Razılaşmanın 2.1-ci və 2.2-ci bəndlərində qeyd olunan fəaliyyətləri mərkəzi, yerli icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, habelə beynəlxalq və qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə həyata keçirə bilərlər.

## 4. Qüvvəyə minmə, qüvvədə olma müddəti və ləğv edilmə

4.1. Razılaşma (iki nüsxədə) imzalandığı gündən qüvvəyə minir.

4.2. Razılaşma 2 (iki) il müddətində qüvvədədir. Tərəflərdən biri Razılaşmanın müddətinin başa çatmasına azı 1 (bir) ay qalmış digər Tərəfi yazılı formada Razılaşmanın ləğv olunması barədə xəbərdar etməzsə, Razılaşmanın qüvvədə olma müddəti hər dəfə 1 (bir) il müddətinə uzadılır.

4.3. Razılaşma tərəflərdən birinin təşəbbüsü ilə digər tərəfi 1 (bir) ay əvvəl xəbərdar etməklə ləğv oluna bilər.

4.4. Razılaşmaya tərəflərin birgə razılığı və təşəbbüsü ilə dəyişikliklər edilə bilər.

4.5. Razılaşmanın qüvvədən düşməsi bu Razılaşmanın qüvvədə olduğu müddətdə başlanılmış fəaliyyətlərin yekunlaşmasına mane olmur.

| AZƏRBAYCAN QIZIL AYPARA CƏMİYYƏTİ | AZƏRBAYCAN RESPUBLİKASI DÖVLƏT MİQRASİYA XİDMƏTİ |
|---|---|
| Vitse-Prezident | Xidmət rəisinin müavini |
| Qafar Əsgərzadə | Pərviz Musayev |
| ______________________ | ______________________ |